*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 mart 2015-ci il № 19 (1935) Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Çex Respublikasının sənaye və ticarət naziri Yan Mladekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

***Görüşdə Azərbaycan ilə Çexiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin qarşılıqlı investisiya qoyuluşu üçün müsbət zəmin yaratdığı bildirildi, energetika sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.***

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyasının "VTB" Bankının prezidenti və idarə heyətinin sədri Andrey Kostini qəbul edib.*

***Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin maliyyə, bank sektorunda əməkdaşlığının bundan sonra da genişləndiriləcəyinə əminlik ifadə olundu və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Sloveniya Respublikası parlamenti Milli Şurasının sədri Mitya Bervarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

***Görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli münasibətlərin səviyyəsinin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi sahədə razılıq doğurduğu bildirildi, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu.***

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Rusiya Federasiyası Prezidentinin köməkçisi, Rusiya Federasiyası Olimpiya Komitəsinin vitse-prezidenti İqor Levitini qəbul edib.*

***Prezident İlham Əliyev birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsindən qısa vaxt keçməsinə baxmayaraq, bu istiqamətdə böyük işlərin görüldüyünü vurğuladı və Oyunların yüksək səviyyədə təşkil olunması üçün Azərbaycanın bütün səylərini əsirgəmədiyini bildirdi. Dövlətimizin başçısı bu idman yarışının təkcə ölkəmiz üçün deyil, ümumilikdə idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi önəmini qeyd etdi.***

***Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.***

**AzərTAc-ın materialları əsasında**

*Ön xətdən reportaj*

# Mübariz ruhlu Vətən keşikçiləri

General-polkovnik Zakir HƏSƏNOV:

*Artıq torpaqlarımızın azad olunacağı gün yaxınlaşır. Biz hər gün, hər an, hər təlimdə Silahlı Qüvvələrimizi möhkəmləndirməklə bu günü daha da yaxınlaşdırırıq.*



***Yollar bitib-tükənmir... Getdikcə gedirsən. Bu yollar insanları mənzil başına gec, ya tez çatdırır, məqsədinə yaxınlaşdırır. Nə yaxşı ki, bu yollar var. Vətənimizin müdafiəsində gecə-gündüz, soyuq-isti bilmədən əzmlə dayanan hərbçilərin arzu və istəklərini qələmə almaq məqsədilə yolçusu olduğum Bakı-Ağstafa qatarı da dəmir relslərin üzərində elə sürətlə irəliləyir ki, sanki mənzil başına yetişmək istəyənlərin ürəyini oxuyurdu.***

***Erməni qəsbkarları ilə sərhəd zolağında yerləşən Qazax rayonu atəşkəsin tez-tez pozulduğu ərazilərimizdəndir. Artıq neçə illərdir ki, erməni daşnakları bu torpağın sakitliyinə qənim kəsilib. Düşmən təkcə döyüş mövqelərimizi deyil, dinc əhalini, yaşayış məntəqələrini atəşə tutmaqdan çəkinmir, insanları səksəkə, qorxu altında saxlamağa çalışır. Budur, dünyaya özünü "yazıq", "haqqı tapdanan" millət kimi göstərmək istəyən maskalanmış erməni siması.***

Hərbi hissəyə çatanda artıq səhər saat 11-i ötürdü. Nəzarət-buraxılış məntəqəsini nizamnamə qaydalarına uyğun olaraq keçib hərbi hissəyə daxil oluram. Burada zabit Elşad Əbilova gəlişimin məqsədini bildirirəm.

- Döyüşçülərimizin qəhrəmanlığını, şücaətini işıqlandırmaq bu gün çox vacibdir, - deyir E.Əbilov.

- Onlar müasir silahlardan istifadə qaydalarına mükəmməl yiyələnmiş, yüksək mənəvi-psixoloji və döyüş hazırlığına sahiblənmiş döyüşçülərdir. Hər bir əsgərin, zabitin, döyüşçünün vətənpərvərlik hissi, Ali Baş Komandana, Vətənimizə, torpağımıza, xalqımıza sədaqət hissi hər şeydən üstündür. Belə keyfiyyətləri özündə əks etdirən hərbçilərimiz düşmən üzərində qələbəyə nail olmaq gücündədir. Bir azdan özünüz də deyilənlərin şahidi olacaqsınız.

Hərbi hissənin zabiti Elmar Zeynalabdinov söhbətində qeyd etdi ki, ictimaiyyətlə əlaqəli görülən işlər şəxsi heyətin maraq dairəsindədir. Məsələn, görkəmli hərb xadimi general Əlağa Şıxlinskinin 150 illik yubiley tədbirində əsgərlərin iştirakı hərb tariximizin, qəhrəmanlıq ənənələrimizin öyrənilməsi baxımından çox əhəmiyyətli idi. "Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müntəzəm olaraq təmas xəttində olması, hərbi qulluqçularla görüşləri, xidmətdə fərqlənənlərin mükafatlandırılması zabit və əsgərlərimizdə qürur hissi oyadır. Bu gün ölkəmizdə xalqla ordu arasında sarsılmaz birlik mövcuddur".

- Ön xəttə getməyə maşın hazırdır, - deyə E.Zeynalabdinov bizi tələsdirir.

Kiçik çillə olsa da, havadan ılıq payız, yaz aylarına bənzərlik duyulurdu. Uzaqdan göz oxşayan boz rəngli təpələr, dağlar dumansız, qarsız idi. Bu yerlərdə düşmənlərimizlə mübarizədə Vətən oğulları qeyrət qalası tikib, güclü müdafiə istehkamı yaradıblar. Eşq olsun, Azərbaycan əsgərinə, igid döyüşçülərimizə!

**(Ardı 2-ci səhifədə)**

## Misir qəzeti Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycana vurulmuş ziyan barədə yazır

Erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ regionunun işğal edilməsi nəticəsində Azərbaycanın üzləşdiyi itkilərin və ona vurulmuş ziyanın qiymətləndirilməsi üzrə Azərbaycanın İşçi Qrupu dünya birliyinin diqqətini bu məsələyə cəlb etmək məqsədilə beynəlxalq təsisatlara sənədli faktlar təqdim etmək üçün məruzə hazırlayır.

Bu məruzə haqda Misirin populyar "Almesryoon" elektron qəzetində dərc edilmiş məqalədə vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə keçən il yaradılmış İşçi Qrupa müxtəlif sahələrin mütəxəssisləri daxildir. Ekspertlərin işi başa çatandan sonra İşçi Qrupun məruzəsi əvvəlcə ölkə Prezidentinə təqdim olunacaq, sonra isə beynəlxalq təşkilatlara göndəriləcək.

Materialda qeyd edilir ki, İşçi Qrup tərəfindən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə Bakıda təşkil edilən "İşğal edilmiş torpaqlardakı abidələr: vurulmuş ziyanın qiymətləndirilməsi" mövzusunda konfransda İşçi Qrupun rəhbəri, Milli Məclisin deputatı Xanhüseyn Kazımlı çıxış edib.

X.Kazımlı bildirib ki, Azərbaycanın işğal edilmiş ərazilərində bu günə qədər rəsmən qeydiyyata alınmış 901 tarix və mədəniyyət abidəsi - müsəlmanların müqəddəs ziyarətgahları, məscidlər, qalalar, məbədlər, körpülər, heykəllər vardır. Ermənilər bu abidələrin çoxunu ya tamamilə dağıdıb, ya da onlara ciddi ziyan vurublar. İşçi Qrupun rəhbərinin sözlərinə görə, ən çox ziyan çəkən müsəlman ziyarətgahları və mədəni abidələr olub. Həmin ərazilərdəki 67 məsciddən 63-ü işğalçı erməni silahlı qüvvələri tərəfindən tamamilə dağıdılıb, 4 məscidə ciddi ziyan vurulub (onların yalnız divarları salamat qalıb) və yalnız beynəlxalq təşkilatların bu məsələyə müdaxiləsi sayəsində həmin 4 məscidin qalıqları xilas edilib.

Materialın sonunda qeyd edilir ki, Azərbaycanın əzəli ərazisi olan Dağlıq Qarabağ 1992-ci ildə Ermənistan tərəfindən işğal edilib. Ermənistanla Azərbaycan arasında bu münaqişə Sovet İttifaqı dağılandan sonra başlanıb. O vaxt separatçı ermənilər Ermənistanın dəstəyinə arxalanaraq Dağlıq Qarabağ regionunu ələ keçiriblər. Vurğulanır ki, 30 min insan bu münaqişənin qurbanı olub və münaqişənin tənzimlənməsinə dair aparılan danışıqlara baxmayaraq, 1994-cü ildən bəri təmas xəttində atışmalar baş verir və hərbi əməliyyatların yenidən başlanması təhlükəsi hələ də qalır.

**AzərTAc**

## Azərbaycan Respublikası Müdafiə nazirinin Xorvatiya və Sloveniyaya rəsmi səfəri başlayıb

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Xorvatiya Respublikası və Sloveniya Respublikasına rəsmi səfərə gedib.***

Müdafiə naziri Xorvatiya Respublikasının Müdafiə naziri cənab Ante Kotromanoviçin dəvətilə martın 10-dan 12-dək Xorvatiyada və Sloveniya Respublikasının Müdafiə naziri cənab Yanko Veberin dəvətilə martın 12-dən 14-dək Sloveniyada olacaq.

Səfər çərçivəsində hər iki ölkənin rəhbərliyi ilə bir sıra görüşlərin keçirilməsi, ikitərəfli hərbi əməkdaşlığın perspektiv istiqamətlərinin müzakirə edilməsi, təhlükəsizlik və digər məsələlərə dair fikir mübadiləsinin aparılması planlaşdırılır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Türkiyə Hərbi Hava Qüvvələri Komandanı Azərbaycanın hərbi aerodromlarında olub





***Türkiyə Respublikası Hərbi Hava Qüvvələri Komandanı, ordu generalı Akın Öztürk ölkəmizə səfəri çərçivəsində Azərbaycanın hərbi aerodromlarında olub.***

Qonağa hərbi obyektlərdə aviasiya vasitələrinin istifadə imkanları və tapşırıqları, aerodromların texniki təminatı və ümumi vəziyyəti, o cümlədən ərazidəki infrastruktura dair məlumat verilib.

Azərbaycan Hərbi Hava Qüvvələri ilə yaxından tanış olan ordu generalı A.Öztürk uçuş və texniki heyətin təlim-döyüş hazırlığını və bacarığını yüksək qiymətləndirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## "TurAz Şahini 2015" təlimi davam edir

Türkiyə və Azərbaycan Hərbi Hava Qüvvələrinin birgə təlimləri davam edir. Ötən gün simvolik olaraq şəxsi heyətin iştirakı ilə qurban kəsilməsi mərasimi keçirilib.

Mərasimdə Türkiyə HHQ-nin aviabaza komandiri çıxış edərək təlim iştirakçılarına uğurlar diləyib.

MiQ-29, Su-25, Mi-17 tipli təyyarə və helikopterlərin pilotları ilə keçirilən dərslərə əsasən, uçuşlara hazırlıq davam etdirilib. Heyətlər uçuş xəritələrində aerodrom və təlim rayonunun ərazisini öyrənərək çalışma tapşırıqlarını yerinə yetirib, təhlükəsizlik qaydaları və hündürlük hesabatlarını aparıblar.

Təlimlər davam edir.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Martın 9-dan 13-dək Hohenfels şəhərində (Almaniya) Kombayn Rezolv-4 təliminin yekun planlaşdırma konfransı, martın 9-dan 20-dək İzmir şəhərində (Türkiyə) hava sahəsinə nəzarət və idarəetmə kursu, martın 10-dan 11-dək İstanbul şəhərində (Türkiyə) hərbi və təhlükəsizlik tədqiqatları üzrə beynəlxalq simpozium, martın 10-dan 19-dək Qarmiş-Partenkirxen şəhərində (Almaniya) ingilis dili fakültəsinin inkişafı mözusunda işçi görüşü, martın 11-dən 13-dək Belqrad şəhərində (Serbiya) əməliyyat imkanları konsepsiyası, qiymətləndirmə və analiz proqramının məlumat bazası üzrə təlim kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***9 mart 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 40 dəfə pozub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Şuraabad, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***10 mart 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 34 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Sarıcalı, Cəvahirli, Kəngərli, Şuraabad, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

(Əvvəli 1-ci səhifədə)

# Mübariz ruhlu Vətən keşikçiləri

Bizi müşayiət edən zabit Şamxal Şıxıyev 1993-1995-ci illərdə ali hərbi təhsil alıb. Bu illər müstəqil ordumuzun ilk quruculuq dövrünə təsadüf edib. 2011-ci ildən Qazax bölgəsində xidmət edən Ş.Şıxıyev əvvəlki illərdə müxtəlif bölgələrdə bölük və taqım komandiri olub. Hazırda isə tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmətini davam etdirir.

- Şəxsi heyətin döyüş, fiziki və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir, - deyə zabit qeyd edir. - Döyüşçüyə xas olan əsas amillərdən biri də düşmənə nifrət hissidir. İllərdir torpaqlarımızı işğal altında saxlayan ermənilər mənfur niyyətlərindən əl çəkmirlər. Şəhidlər veririk. Düşmənə qarşı qisas və nifrət hissimiz daha da artır. Vətənpərvər hərbçilərimizin qətiyyəti sayəsində düşmənin bütün hücum, basqın cəhdlərinin qarşısı cəsarətlə alınır, canlı qüvvə və texnikaları məhv edilir.

Maşını ustalıqla idarə edən sürücü müddətdən artıq xidmət edən hərbi qulluqçudur. O da məsuliyyətini dərindən dərk edərək maşını təhlükəli ərazilərdə ehtiyatla idarə edir. Sürücünün bacarığı gözümdən yayınmır.

Nəhayət, doğma Vətənimizin, ana torpağın qəhrəman müdafiəçilərinin görüşünə gəlib çıxırıq. Budur, ölməz Mübarizin dağ vüqarlı silahdaşları, qeyrətli Vətən oğulları bizi qarşılayır. Onlara baxdıqca qürur, fəxr hissi keçirirəm. Düşmənlə üzbəüz gecə-gündüz səngərdə keşik çəkən, barmağı daim tətikdə olan mərd Vətən övladları gəlişimizə sevinirlər. Döyüşçülərin məişət qayğıları ilə maraqlanıram. Postda yaradılan kiçik əsgər yataqxanasında səliqə-sahman, təmizlik ürəkaçandır. Yataqxana müasir istilik sistemi ilə təchiz olunub. Divardan asılan Milli Qəhrəman Mübariz İbrahimovun şəkli diqqətimi çəkir. İnanırıq ki, milli dəyərlərimizi yaşadan, ata-babalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələrini örnək hesab edən hərbçilərimiz tezliklə torpaqlarımızı erməni işğalçılarından azad edəcək, şəhidlərimizin qisasını alacaqlar.

Manqa komandiri kiçik çavuş Taleh Məmmədov əslən Ağstafa rayonundandır. O, bizimlə söhbətində bunları bildirdi: "Məişət qayğılarımız yüksək səviyyədə həll olunub, əsgərlərimiz kalorili, keyfiyyətli yeməklərlə təmin edilir. Əsgərlərimizdə döyüş ruhu yüksəkdir. Hərbi vərdişlərə mükəmməl yiyələniblər. Mən də Vətənə övladlıq borcumu yerinə yetirdikdən sonra hərbçi olmağa qərar verdim. Torpaqlarımız düşməndən azad olunmayınca, qələbə gününü görməyincə, hərbi formanı əynimdən çıxarmayacağıma and içmişəm".

Döyüş növbəsi aparan əsgərə yaxınlaşıram. Camo Novruzov 1995-ci ildə Quba rayonunda anadan olub. Atıcı silahlardan istifadə qaydalarını çox yaxşı bilir. Düşmənin diversiya-təxribat qruplarının hücum cəhdinin qarşısının alınmasında fəal iştirak edib. Barmağı tətikdə, gözləri düşmənin mövqelərini dəqiqliklə izləməkdə olan igid döyüşçüdən uzaqlaşıram. Allah sizləri qorusun, Vətənin mərd oğulları. Axı Vətən torpağı sizlərə əmanətdir.



Digər döyüş növbəsində olan əsgər Təbriz İmanovdan xahiş edirəm ki, düşmənin mövqelərini izləməyimə kömək etsin. O, təhlükəli vəziyyət yarana biləcəyindən ehtiyatlanaraq bu əməliyyatı çox ani keçirir. Əsgər T.İmanov 1995-ci ildə Xaçmaz rayonunda anadan olub. Özünün dediyi kimi, hələ orta məktəb illərində ibtidai hərbi hazırlığa böyük maraq göstərib. Silahlardan istifadə qaydalarını hələ orta məktəb illərində mənimsəyən Təbriz bu gün düşmənlə mövqedə əzmlə dayanıb, barmaqlarını tətikdən çəkmir.

Söhbətimi taqım komandiri baş leytenant Aydın İsmayılovla davam etdirirəm. O, 2009-cu ildə Heydər Əliyev adına AAHM-i bitirib. İndi isə 6 aydır ki, burada xidmət edir. A.İsmayılov əsgərlərinin qorxmazlığından, düşmənə qarşı amansız olmaqlarından, hər birinin Mübariz İbrahimova oxşamaq istəmələrindən danışır. - Komandir əsgərlərinə güvənir. Şəxsi heyət arasında nizam-intizam, qarşılıqlı yoldaşlıq münasibətləri yüksək səviyyədə qurulub. Mən onların hər biriylə ayrı-ayrılıqda söhbətlər aparır, qayğıları ilə daim maraqlanıram. Xidmət dövründə bu amillər vacib şərtdir. Əsgər komandirinin diqqət və qayğısını həmişə hiss etməlidir.

Əsgərlərdən Xanəli Sarıyev, Elman Xanməmmədov, Ariz Salmanov, Ceyhun Veysəlov, Həsən Abbasov, Elməddin Cəbiyev və Hüseyn Abbasov içdikləri hərbi anda sadiq qalacaqlarını, düşmənin bir atəşinə on qat cavab verəcəklərini, komandirlərinin tapşırıqlarını vicdanla yerinə yetirəcəklərini əminliklə bildirdilər.

Ön xətdə şərəfli xidmət keçən hərbçilərimizlə sağollaşıb ayrılırıq. Yenə də yolumuz növbəti döyüş postuna - Vətənə sədaqətlə qulluq edən qəhrəman müdafiəçilərin qərar tutduğu məkanadır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Qabaqcıl təcrübə*

# Ən yaxşı tuşlayıcı



***İnsan daim yeniliyə can atır. Çünki həyatımızda yenilik olmasa, müasir inkişafa nail ola bilmərik. Hər gün həyatımızın yaxşıya doğru dəyişməyini arzulayırıq.***

Ordu həyatı da belədir. Müasir ixtira edilmiş silahlar, zirehli texnikalar, gəmilər, təyyarələr zabit və əsgərlərdən yeni vərdişləri mənimsəməyi tələb edir. Yeniliklə ayaqlaşmaq üçün ən səmərəli yol qabaqcıl təcrübəni mənimsəməkdir. Bu gün hərbi hissə və birləşmələrdə keçirilən məşğələlərin də məqsədi elə qabaqcıl təcrübəni vaxtlı-vaxtında şəxsi heyətə aşılamaqdır.

Bu günlərdə cəbhə bölgəsində ezamiyyətdə olarkən artilleriyaçıların məşğələlərini yaxından izlədim. Baş leytenant Cəmil İsayev heyət nəfərlərinə dərs keçir, onlara sınaqlardan çıxmış qabaqcıl təcrübələri aşılayırdı. Əsgərlər isə diqqətlə dərsin gedişini izləyir, öyrənməyə çalışırdılar.

- Əgər bu gün xidmətdə uğur qazanmaq istəyiriksə, ilk növbədə gənc əsgərlərə qabaqcıl təcrübəni öyrətməliyik, - deyə baş leytenant Cəmil İsayev qeyd etdi. - Müntəzəm olaraq hərbi hissəmizdə "Ən yaxşı top komandiri", "Ən yaxşı hesablayıcı", "Ən yaxşı tuşlayıcı" və başqa yarışlar keçirilir. Əsgərlər bu yarışlarda həvəslə iştirak edirlər. Buna görə də birinciliklər gərgin keçir. Çünki hamı qalib adını qazanmağa səy göstərir. Təbiidir ki, təcrübəsi, hazırlığı yüksək olanlar birinciliyin qalibi olurlar. Yarışlar başa çatandan sonra nəticəni təhlil edirik və müsbət cəhətləri şəxsi heyətə çatdırırıq. Dərs və məşğələlərdə qazanılan qabaqcıl təcrübəni əsgərlərə dərindən öyrətməyə çalışırıq. Yeni tədris ilinə uğurla başlamışıq. Ötən tədris ilində əldə olunan uğurlar, qazanılan nailiyyətlər bizi arxayınlaşdırmır. Bir müddət əvvəl şəxsi heyət təlimlərdən qayıdıb. Topçularımız hədəfləri dəqiq vuraraq uğur qazanıblar. Təlimlərdə əldə olunan təcrübə şəxsi heyət arasında yayılır.

- Hərbi bilikləri öyrənməyə maraq göstərdiyimiz üçün dərs və məşğələlərdə fəal iştirak edirik, - dedi kiçik çavuş Elvin Novruzov. - Komandirlərimiz də məşğələlərin səmərəli keçirilməsi üçün bütün əyani vəsaitlərdən bəhrələnməyə çalışırlar. Bütün bunlar isə son nəticədə biliklləri mənimsəməyin yollarını asanlaşdırır. Səmərəli keçirilən həm nəzəri, həm də əməli məşğələlər bizi uğurlara aparır.

Məşğələdə fəal iştirak edən çavuş Mahir Xəlilov, əsgərlərdən Cahid Əvəzzadə, Daşqın Əmənov, Zəka Verdiyev, Aqil Bayramov, Şamil Həsənov, Muraz Abdulrəhmanov və başqaları ilə söhbət etdim. Onlar bildirdilər ki, xidmətdə uğur qazanmaq üçün qabaqcıl təcrübələrdən yararlanmağa səy göstərirlər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

***Hər bir topla atışın təmin edilməsində AİC-nin (artilleriyanın idarəetmə cihazı) xüsusi rolu vardır. Bu cihaz olmadan aşkar edilmiş hədəfə olan məsafəni nə müəyyən etmək olar, nə də onun koordinatını dəqiq çıxartmaq olar. Bu səbəbdən də hər bir artilleriyaçı yaxşı bilir ki, top qurğusu AİC olmadan uğurlu atış həyata keçirilə bilməz. Heyət üzvləri üçün silahın taktiki-texniki xassələrini öyrənmək vacib olduğu qədər adını çəkdiyimiz cihazın da sirlərinə yiyələnmək gərəklidir. Bu cihazdan istifadə edən əsgərlərin mütləq mükəmməl riyazi bilikləri olmalıdır. Məsafəni təyin edərkən, hədəfin koordinatlarını çıxardarkən mütləq dəqiqlik tələb olunur. Bu dəqiqlik topun sərrast atəşini təmin edir.***

*Döyüş hazırlığı*

# Peşəkarlıq ordunun döyüş qüdrətini artırır





Bu yaxınlarda cəbhə bölgəsində artilleriyaçıların yanında oldum. Onların çöl-səhra məşğələsində yaxından iştirak etdim. Burada komandirlərin əsgərlərə necə təlim keçdiyini görəndə, bir daha əmin oldum ki, topçular istənilən döyüş tapşırığını mükəmməl şəkildə yerinə yetirməyə qadirdirlər. Məşğələ yerində görüşdüyüm zabit Şahid Vəliyev şəxsi heyətin mükəmməl hərbi biliklərə yiyələnməsi üçün əlindən gələni əsirgəmir. Zabit hərbi təhsil aldığı illərdə mənimsədiyi bilik və bacarıqlarını əsgərlərə yüksək səviyyədə aşılamağa çalışır.

Şahid həm də zabit kimi xidmətə başladığı dövrdə yetərincə təcrübə qazanıb. Ona görə də bölmə komandiri tabeliyində olan şəxsi heyətə bilik və bacarıqları dərindən öyrədə bilir.

Daha çox diqqətimi cəlb edən əsgərlərin hazırlığı idi. Əsgər Beyti Ağayev cihazın yanında idi. O, verilən komandaya uyğun hərəkət edirdi. Məsafəni müəyyən edəcək hədəflərə olan məlumatlar komanda-müşahidə məntəqəsindən verilirdi.

- Xidmətə gəldiyim gündən artilleriya bölməsindəyəm, - dedi əsgər. - Bu müddət ərzində komandirlərimdən müfəssəl biliklər əldə etmişəm. Riyazi hesablamaları tez və dəqiq apardığım üçün mənə AİC üzərində işləməyi öyrətdilər. Cihaz üzərində hesablamalar aparmağı qısa müddətdə öyrəndim. Hədəfə qədər məsafəni və ondan topoqrafik dönməni müəyyən etməyi bacarıram. Komandirlərim də tapşırığı dəqiq yerinə yetirdiyimi yaxşı bilirlər. Ona görə də onlardan hər zaman təşəkkür alıram.

Əslində hər bir əsgərin yetərincə bilik və bacarıqlara malik olmasının əsas səbəbi komandirlərdir. Öncə təlim keçən komandir ixtisası üzrə yetkin biliyə və pedaqoji bacarığa yiyələnmiş olsun ki, o da tabeliyində olanlara doğru, dürüst təlim keçə bilsin. Müsbət haldır ki, bu gün ordumuzun istənilən bölməsində xidmət edənlər öz vəzifə borclarını yetərincə bilirlər. Belə olan halda onların tabeliyindəki əsgərlər yüksək döyüş vərdişlərini özlərində əxz etmiş olurlar.

Olduğum artilleriya bölməsində bir daha komandirlərin əsgərlərə hərbi bilikləri necə aşıladıqlarını gördüm. Əldə olunan nəticələrdən bir daha yəqin etdim ki, burada həm komandir, həm də əsgər üzərinə düşən məsuliyyət hissini dərindən dərk edir. Bunun da nəticəsi döyüş atışlı təlimlərdə bilinir. Təlimə hazırlaşan topçuların uğur qazanacaqları indidən bəllidir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında elmi seminar keçirilib





***Müdafiə nazirinin təsdiq etdiyi "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 2015-ci ildə elmi iş planı"na əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında hərb elminin inkişafı sahəsində "Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi fəaliyyəti və Xəzər dənizi sahəsində aparılan elmi tədqiqatlar" mövzusunda elmi seminar keçirilib.***

Seminarı giriş sözü ilə Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev açıb. O, orduda idarəetmənin və qərar qəbuletmənin təkmilləşdirilməsində geoinformasiya, hərbi topoqrafiyada 3D xəritələşdirmə sistemlərinin inkişaf perspektivlərindən danışıb.

Daha sonra məruzə ilə AMEA-nın Coğrafiya İnstitutunun direktoru akademik Ramiz Məmmədov çıxış edib.

Əlavə məruzə ilə Hərbi Akademiyanın Adyunktura və elm şöbəsinin rəisi, texnika elmləri namizədi, dosent, polkovnik Elşən Həşimov çıxış edib.

Elmi-praktik cəhətdən əhəmiyyətli olan məruzə ətrafında diskussiyalar aparılıb və dinləyicilərin sualları məruzəçilər tərəfindən cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# “Azərbaycan qadını cəmiyyətimizdə böyük qüvvədir”

## Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində Beynəlxalq Qadınlar Günü münasibətilə tədbirlər keçirilib



***Cəmiyyətin mühüm tərkib hissələrindən biri kimi Silahlı Qüvvələrimizdə də Beynəlxalq Qadınlar Günü böyük ehtiramla qeyd edildi. Hərbi Dəniz Qüvvələrində 8 mart ərəfəsində keçirilən təntənəli tədbir də bunun təsdiqi idi.***

Tədbirdə şəhid olmuş hərbçi qadınların ruhu bir dəqiqəlik sükutla yad edildi.

1-ci dərəcəli kapitan Şahin Məmmədov qadınların cəmiyyətdə fəaliyyət istiqamətlərindən, həmçinin ordunun müxtəlif təsisatlarında qadınların da nümunəvi xidmət etməsindən söz açaraq qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyev cəmiyyətin inkişafında qadınların roluna həmişə həssaslıqla yanaşırdı. Onun "...qadınsız insan yoxdur, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar" kimi fikirləri daim aktuallığını qoruyub saxlayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də qadınların cəmiyyətdə rolunu yüksək qiymətləndirir və onlar üçün bütün şəraitin yaradılmasını zəruriləşdirir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəbbüsü ilə qadınların orduda təsərrüfat-məişət işlərinə cəlb olunması Silahlı Qüvvələrimizdə aparılan islahatların tərkib hissəsi kimi dəyərləndirilməlidir. Nazir bayram təbrikində ordu sıralarında xidmət edən və çalışan qadınların əməyini layiqincə qiymətləndirir, qadınların Azərbaycan Ordusunun inkişafı naminə bundan sonra da bacarıqlarını əsirgəməyəcəyinə əmin olduğunu bildirir.

Çıxışının sonunda qadın hərbi qulluqçuları bayram münasibətilə təbrik edən zabit onlara cansağlığı, xidmətlərində uğurlar arzuladı.

1-ci dərəcəli kapitan Natiq Bağırov isə Hərbi Dəniz Qüvvələri komandanının hərbi xidmətdə fərqlənən qadın hərbi qulluqçuların mükafatlandırılması haqqında əmrini oxudu.

Qadın hərbi qulluqçular adından Reyhan Quliyeva çıxış edərək göstərilən hörmət və ehtirama görə minnətdarlığını bildirdi.

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**



***Naxçıvan Qarnizonunun Zabitlər Evində 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə tədbir keçirilib.***

Əlahiddə Ümumqoşun Ordusunun zabiti polkovnik Mirqiyas Rüstəmov tədbiri açıq elan edərək Müdafiə naziri və Ordu Komandanının təbrikini tədbir iştirakçılarına çatdırıb. O bildirib ki, bu gün ordu sıralarında xidmət edən hərbi və mülki qadın qulluqçular öz hüquq və vəzifələrini dərk edərək xidmətlərini Nizamnamələrin tələbləri çərçivəsində yerinə yetirir, bütün tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

Sonra hərbi və mülki qadın qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Tədbirin sonunda Naxçıvan Dövlət Filarmoniyası kollektivinin maraqlı çıxışları alqışlarla qarşılanıb.

**"Azərbaycan Ordusu"**

***Artıq müasir cəmiyyətimizin əksər sahələrində olduğu kimi, ordu quruculuğunda da qadınlarımızın rolu hiss olunmaqdadır. Silahlı Qüvvələrdə bilavasitə döyüş hazırlığı ilə bağlı olmayan məişət-təsərrüfat işlərində zərif cinsin nümayəndələri bacarıqla xidmət edirlər. Amma bəzi qoşun növlərində döyüş vəzifələrinə xanım hərbi qulluqçuların da cəlb edilməsi təsdiqləyir ki, bu sahədə onlar əsl nümunə olaraq verilən hərbi tapşırıqları uğurla yerinə yetirirlər.***



Hərbi Hava Qüvvələrinin hava hücumundan müdafiə təyinatlı "N" hərbi hissəsində Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən təntənəli tədbirdə çıxış edən polkovnik-leytenant İkram Səfərov öncə kollektivin xanım əməkdaşlarını salamlayıb, onları Müdafiə Nazirliyinin rəhbərliyi və Hərbi Hava Qüvvələrinin komandanlığı adından bayram münasibətilə təbrik edib. O bildirib ki, müasir dövrdə Azərbaycan cəmiyyətinin aparıcı qüvvələrindən biri olan qadınlarımız bir çox sahələrdə yetərli uğurlara imza atıblar. "Fərəh hissi doğuran haldır ki, bu gün hərbi kollektivlərin uğurlarında qadınların da rolu az deyil. Bizim hərbi hissədə onlar nəinki təsərrüfat işlərində və sosial sahədə, həmçinin bilavasitə döyüş hazırlığı ilə bağlı vacib sahələrdə də yüksək məsuliyyət hissi ilə xidmət edirlər. Artıq mühüm döyüş tapşırığının həyata keçirildiyi komanda-əməliyyat məntəqəsində planşetçi, rabitəçi kimi vacib döyüş vəzifələrinə təcrübəli qadın hərbi qulluqçular təyin ediliblər", - deyə İ. Səfərov vurğulayıb.

Çıxışına davam edən yüksək rütbəli zabitə görə, Azərbaycan qadını cəmiyyətin bu və ya digər sahələrində təmsil olunmasına baxmayaraq, onun ən başlıca vəzifəsi ailədə ana adını şərəflə daşıması və övlad böyüdüb tərbiyə etmək kimi müqəddəs vəzifəni layiqincə doğrultmasıdır. "Sıralarımızda xidmət edən, habelə mülki işlərdə çalışan xanımların hər birinə cansağlığı və ailə xoşbəxtliyi arzulayıram", - deyən zabit Beynəlxalq Qadınlar Günü münasibətilə hərbi hissənin qadın nümayəndələrini bir daha tabeliyində olan zabit, gizir və əsgər heyəti adından təbrik edərək onlara bayram hədiyyəsi təqdim edib.

Hərbi hissə komandirinin müavini polkovnik-leytenant Bünyam Səfərov da tədbirdə söz alaraq onlarla çiyin-çiyinə çalışan və məsuliyyətli tapşırıqların öhdəsindən bacarıqla gələn qadınları təbrik edib, ən xoş arzularını çatdırıb.

Təntənəli tədbir bayram konserti ilə başa çatıb.

**"Azərbaycan Ordusu"**

# Vətən bizə arxalanır

***Vətənpərvər oğulların xidmət etdiyi cəbhə xəttinə yollanırıq. Bizi qarşılayan zabit Elçin Nuriyev bu yerlərdə nümunəvi xidmət edən Vətən oğullarından, şəxsi heyətin döyüş hazırlığını artırmaq üçün həyata keçirilən tədbirlərdən söhbət açır.***

- Bu gün ordumuzun qarşısında duran əsas vəzifə torpaqlarımızın işğaldan azad olunmasıdır, - deyən zabit Elçin Nuriyev xalqla ordunun yenilməz birliyinin bu istiqamətdə ən böyük uğur olduğunu bildirir.

Torpaqlarımızın müdafiəsində dayanan igidlərimiz daim ayıq-sayıqdırlar. Tez-tez atəşkəsi pozan düşmənə layiqli cavab verilir.

Səngər həyatı yaşayan igidlər bizi mehriban qarşılayırlar. Döyüşçülərin xoş ovqatı, nizam-intizamı diqqəti çəkir. Ötən illərlə müqayisədə xidmət üçün hərtərəfli şərait yaradılıb. Ordu rəhbərliyinin cəbhə bölgələrinə səfərləri əsgər və zabitlərin məsuliyyət hissini daha da artırıb. Əsgər yataqxanasında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş guşədə onun döyüş yolu, simasında düşmənə olan sonsuz nifrəti öz əksini tapıb. Bu guşənin qarşısında duran hər kəs Mübariz kimi mərd, qorxmaz, cəsarətli döyüşçü olmağı qarşısına məqsəd qoyur.

Elçin Ağayevin çalışqan zabit olduğunu deyən tabor komandiri onun bölük komandiri kimi vəzifəsinin öhdəsindən bacarıqla gəldiyini bildirir. Öyrənirik ki, Elçin Ağayev qədim Naxçıvanda dünyaya göz açıb. Gənc zabit Vətənə xidmətdən qürur hissi keçirdiyini bildirərək deyir:

- Vətən nicatını bizdən gözləyir. Torpaqlarımız əsrlər boyu düşmənlərdən, yadellilərdən qorunub. Bu gün isə torpaqlarımız bizlərə etibar olunub. Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən tədbirləri şəxsi heyətə diqqətlə izah edir, hər bir əsgərin döyüş hazırlığının yüksəldilməsinə ciddi fikir veririk.




Əsgərlərin döyüş əzminin artırılması üçün keçirilən ictimai-siyasi hazırlıq məşğələləri şəxsi heyətin Vətənə sədaqət hissini daha da artırır. Məşğələlərdə fərqlənən əsgər Çingiz Yusifov Bərdə rayonundan hərbi xidmətə çağırılıb, nümunəvi əsgər kimi tanınır. O, Vətənin müsəlləh əsgəri, bacarıqlı döyüşçüsü olmağın bu günümüz üçün vacibliyini söyləyir. Həmsöhbətim böyük qardaşının da artıq əsgəri xidməti başa vurduğunu, onunla birgə hər an düşmənə qarşı döyüşlərə atılmağa hazır olduğunu bildirir.

Şabran rayonundan olan əsgər Sadiq Məmmədov da silahdaşları kimi andına sadiq oğullardandır. Gecəli-gündüzlü ön xətdə bu oğullar torpaqlarımızı mərdliklə qoruyurlar.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Parisdə azərbaycanlı rəssamın sərgisi böyük maraq doğurub



Parisin məşhur "İsveçrə şəhərciyi"nin Beynəlxalq İncəsənət Qalereyasında azərbaycanlı rəssam Nigar Nərimanbəyovanın fərdi sərgisi açılıb. Sərginin rəsmi açılışında Fransa ictimaiyyətinin nümayəndələri, tanınmış incəsənət xadimləri, Azərbaycanın bu ölkədəki səfirliyinin əməkdaşları və diasporumuzun təmsilçiləri iştirak ediblər.

Sərgidə rəssamın yağlı boya ilə ağ kətan üzərində ərsəyə gətirdiyi 20 əsəri nümayiş olunur. Sevimli "Uşaqlıq yuxuları" və "Bütün həyat-teatr" mövzularına sadiq qalan N.Nərimanbəyova fərdi sərgisində də həmin mövzulara bağlı yeni əsərlər təqdim edib. Məhz bu baxımdan rəssamın əsərləri tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Fransanın "İncəsənət qəzeti"nin əməkdaşı Şantal Gionne sərgi ilə bağlı verdiyi müsahibəsində deyib: "Nigar Nərimanbəyovanın rəsm əsərləri çox maraqlı olmaqla yanaşı, böyük rəmzi məna daşıyır. Rəssamın rəng seçimi onun bu sahədə böyük təcrübəsindən xəbər verir".

### İran Xəzər dənizinə yeni hərbi gəmi buraxıb



İran İslam Respublikasının milli istehsalı olan "Dəmavənd" hərbi gəmisi istifadəyə verilib.

Yeni gəmi İranın Xəzər dənizi sahilindəki Ənzəli limanından dənizə buraxılaraq hərbi dəniz qüvvələrinin hərbi arsenalına daxil edilib. Bu münasibətlə Ənzəlidə keçirilən mərasimdə İranın Müdafiə naziri general-mayor Hüseyn Dehqan, Dəniz Qoşunları komandanı, admiral Həbibullah Səyyari və Milli Təhlükəsizlik Şurasının katibi Əli Şəmxani iştirak ediblər.

Ə.Şəmxani mərasimdə çıxış edərək bildirib ki, Xəzər dənizi region ölkələrinin iqtisadiyyatında əhəmiyyətli rola malikdir. Hərbi gəmini dənizə buraxmaqda İranın məqsədi Xəzər dənizində həyata keçirilən enerji layihələrinin təhlükəsizliyini təmin etmək və beynəlxalq terrorçuluğa qarşı qabaqlayıcı tədbirlər görməkdir.

### UNESCO-nun baş katibi qədim Hatra şəhərinin dağıdılmasını pisləyib



Hatra şəhərinə qarşı həyata keçirilən barbarlıq İŞİD-in ərəb xalqının tarixi irsinə nifrətini nümayiş etdirir. AzərTAc xəbər verir ki, bu sözlər UNESCO-nun baş katibi İrina Bokova və İSESCO-nun rəhbəri Əbdüləziz Usman Əltüveyrcinin İŞİD silahlılarının İraqda yerləşən qədim Hatra şəhərini dağıtması ilə bağlı yaydığı bəyanatında qeyd olunub.

UNESCO-nun saytında yerləşdirilən bəyanatda bildirilir ki, qədim Hatra şəhərinin dağıdılması İŞİD tərəfindən həyata keçirilən mədəni irsin məhv edilməsi prosesində yeni mərhələ və dəhşət yaradan bir məqamdır.

Tarixi mənbələrdə Hatra şəhəri haqqında eramızdan əvvəl III əsrdə məlumat verilib. Şəhər Parfiya imperiyasının tərkibinə daxil olub, bizim eranın I-II əsrlərində çiçəklənmə dövrünü yaşayıb.

### İŞİD qruplaşması tarixi Nimrud şəhərinin qalıqlarını məhv edib



İŞİD yaraqlıları qədim mədəniyyət abidələrini dağıtmaqda davam edirlər.

AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, bu dəfə terrorçu qruplaşma tərəfindən İraq ərazisindəki tarixi Nimrud şəhərinin xarabalıqları dağıdılıb.

Nimrud şəhərinin əsası Mesopotamiyada, bizim eradan əvvəl XIII əsrdə qoyulmuşdu. Dörd yüz ildən sonra şəhər qədim Assuriya dövlətinin paytaxtına çevrilmişdi. XIX əsrin ortalarından başlayaraq Mosuldan 35 kilometr aralıda yerləşən bu şəhərin xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı bir sıra önəmli tapıntılar üzə çıxmışdı.

Qeyd edək ki, martın 6-da İŞİD yaraqlıları tərəfindən "bütlərlə mübarizə" adı ilə İraqın şimalında yerləşən Mosul şəhərinin tarix muzeyindəki abidələrin dağıdılmasının sübutu olan video görüntülər yayılmışdı.

### Boris Nemtsovun qətlində şübhəli bilinən daha iki nəfər saxlanılıb



Rusiyalı siyasətçi Boris Nemtsovun qətlində şübhəli bilinən daha iki nəfər saxlanılıb. AzərTAc xəbər verir ki, bu barədə İnquşetiyanın Təhlükəsizlik Şurasının katibi Albert Baraxoyev RİA Novosti-yə məlumat verib.

O bildirib ki, bundan əvvəl həbs olunan Zaur Dadayev Çeçenistan Respublikası DİN-in "Sever" batalyounun alay komandirinin müavinidir, Anzor Qubaşev isə Moskvada özəl təhlükəsizlik şirkətlərindən birində çalışır. Şübhəli qismində yeni həbs edilənlərdən biri hadisə zamanı Zaur Dadayevin maşınında olub, digəri isə Anzor Qubaşovun kiçik qardaşıdır.

Qeyd edək ki, Rusiya Baş nazirinin keçmiş müavini, Nijeqorod vilayətinin keçmiş qubernatoru, Yaroslavl vilayət dumasının deputatı Boris Nemtsov fevralın 28-i gecə Moskvanın mərkəzində, Böyük Moskvoretsk körpüsündə qətlə yetirilib.

### İsveç Silahlı Qüvvələrində kəskin əsgər çatışmazlığı hiss olunur



İsveç Silahlı Qüvvələrində könüllü hərbi hazırlıq keçən gənclərin sayı getdikcə azalır. Bu məlumatlar İsveç parlamentinin (Riksdaq) müdafiə məsələləri üzrə komitəsinin yeni məruzəsində əks olunub. Məruzədə 2009-cu ildən sonra İsveç Silahlı Qüvvələrində baş vermiş dəyişikliklər ətraflı təhlil edilir. Xatırladaq ki, 2009-cu ildə Riksdaq ölkə ərazisində ümumi hərbi mükəlləfiyyətin müvəqqəti dayandırılmasını qərara alıb. Qoşunların strategiyası da dəyişdirilib və ərazi üzrə iri qoşunlar əsasında müdafiə sistemi əvəzinə, zəruri ehtiyac olan yerlərdə istifadə edilməli olan çevik qüvvələr sisteminə keçilib. Lakin zəruri insan resurslarının olmaması bu sistemin əsas nöqsanlarından biri hesab edilir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"

# Topçular qalib oldular

## General Əlağa Şıxlinskinin anadan olmasının 150 illik yubileyinə həsr olunmuş viktorina keçirilib




***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin görkəmli hərb xadimi general Əlağa Şıxlinskinin anadan olmasının 150 illik yubileyinin keçirilməsi haqqında sərəncamının icrası ilə əlaqədar olaraq, Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində tədbirlər davam edir.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi fəaliyyət planına əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Əlağa Şıxlinski haqqında nə bilirik" mövzusunda viktorina keçirilib. Viktorinaya zabit ixtisas taborunun dinləyiciləri - leytenantlar cəlb olunublar. Üç mərhələdə təşkil olunan viktorina ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Viktorinanın aparıcısı yarışmanın şərtlərini iştirakçıların diqqətinə çatdırıb və nəticələri qiymətləndirmək üçün münsiflər heyətinin yaradıldığını bildirib. Münsiflər heyətində polkovnik Nazim Əhmədov, görkəmli sərkərdə haqqında çəkilmiş "Artilleriyanın allahı sayılırdı" filminin rejissoru Ziya Şıxlinski, Azərbaycan Hərb Tarixi Muzeyinin baş elmi işçisi, Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Nuru Məmmədov, polkovnik-leytenant Əbülfət Xəlilov və mayor Emin Əlizamanov təmsil olunublar.





Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik Nazim Əhmədov viktorinanın keçirilməsində əsas məqsədin şəxsi heyətin hərb tariximizə dair bilgilərinin artırılması olduğunu qeyd edib.

Dünyaşöhrətli hərbçinin həyat və döyüş yolundan bəhs edən sualları komanda üzvlərinin düzgün cavablandırmaları onların yetərincə hazırlıqlı olmalarından xəbər verirdi. Yarışmanın gedişində "topçular", "aslanlar", "şahinlər" xüsusilə fərqlənirdilər. Yarışmanın qaydalarına uyğun olaraq əvvəlcə yarımfinala çıxacaq iştirakçıya (4 komanda üzrə) 10 sual verilib. Sonra isə finalda təmsil olunacaq komandanın müəyyən edilməsi üçün iştirakçıya əlavə suallar ünvanlanıb. Qalib komandanın müəyyən edilməsi məqsədilə iştirakçılara yeni 5 sual üzrə tapşırıqlar verilib.



Sonda münsiflər heyəti komandaların toplanmış xallarını əsas götürərək birinci yeri "topçular"a, ikinci yeri "şahinlər"ə və üçüncü yeri "aslanlar"a veriblər. Qaliblər münsiflər heyəti tərəfindən mükafatlandırılıb.

Viktorina general Ə.Şıxlinskinin ömür yoluna həsr olunmuş filmin nümayişi ilə başa çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Yarış döyüşçüdə əzmkarlıq, çeviklik yaradır

***Ölkəmizdə idmanın tarixi çox qədimdir və xalqımızın mədəniyyəti ilə sıx bağlıdır. Bu gün də Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır. İdman sahəsinə göstərilən hərtərəfli diqqət və qayğıdan ruhlanan idmançılarımızın Avropa və dünya çempionatlarında qələbələr əldə etmələri, o cümlədən bir sıra mötəbər beynəlxalq yarışların ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının idman ölkəsi kimi tanınmasına səbəb olub.***

Bu məqsədyönlü tədbirlər Silahlı Qüvvələrimizdə də uğurla həyata keçirilir. Belə ki, birləşmə, hissə və bölmələrimizdə şəxsi heyətin fiziki sağlamlıqlarının daha da yüksəldilməsi üçün idman şəhərcikləri, stadionlar, idman zalları tikilir, müxtəlif idman qurğuları quraşdırılır. Həmçinin, hərbi qulluqçular arasında müxtəlif yarış, turnir və birinciliklər təşkil olunur. Bu da şəxsi heyətin idmana olan marağını daha da artırır. Hərbi qulluqçuların fiziki hazırlıq səviyyələrinin yüksəldilməsi üçün şəxsi heyətin idmana olan maraqlarının artırılması istiqamətində Əlahiddə Ümumqoşun Ordusunda görülən əməli işlər də diqqəti cəlb edir.





Belə ki, Müdafiə nazirinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi ixtisaslar üzrə yarış və müsabiqələrin keçirilməsinin tənzimlənməsi haqqında" qərarına əsasən, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, bölmələr arasında yarışma ruhunun və rəqabətin gücləndirilməsi, hərbi qulluqçuların asudə vaxtlarının daha səmərəli keçirilməsi və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə Əlahiddə Ümumqoşun Ordusunun birləşmə, hissə və bölmələrində kütləvi idman yarışları təşkil olunur.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan kütləvi idman tədbirlərindən biri də Əlahiddə Ümumqoşun Ordusu üzrə hərbi qulluqçular arasında keçirilən daşqaldırma birinciliyi olub. 6 çəki dərəcəsində təşkil olunan yarışda hər bir hərbi qulluqçu daha əzmlə iştirak edərək, öz çəki dərəcəsi üzrə birincilik uğrunda mübarizə aparıb.

Birincilikdə 60 kq çəki dərəcəsində əsgər Xəlil Qədirov, 65 kq çəki dərəcəsində əsgər Ramin Qasımov, 70 kq çəki dərəcəsində əsgər Azər Süleymanov, 80 kq çəki dərəcəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Asif Mustafayev, 90 kq çəki dərəcəsində əsgər Elvin Nəcəfov və 90 kq-dan yuxarı çəki dərəcəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Zamin Məmmədov birinciliyin qalibi olublar. Əlahiddə Ümumqoşun Ordusunun fiziki hazırlıq və idman rəisi mayor Vahid Məmmədov yarışın nəticələrini yüksək qiymətləndirib.

Hərbi qulluqçular arasında keçirilən şahmat birinciliyi də maraqlı idman mübarizəsi şəraitində keçib. Olimpiya sistemi ilə keçirilən yarış 12 komanda arasında aparılıb. Fərdi hesaba müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerlərə əsgər Azər Bayramov, kursant Nemət Məmmədov və əsgər Rövşən Abdurrəhmanov sahib çıxdılar.

Şəxsi heyətin bu cür tədbirlərə daha fəal cəlb olunması üçün qaliblər medal və fəxri fərmanlarla mükafatlandırılıblar.

Əlahiddə Ümumqoşun Ordusunda fiziki hazırlıq və idmanın inkişafı istiqamətində həyata keçirilən əməli tədbirlər şəxsi heyətin asudə vaxtlarının səmərəli təşkilinə, onların fiziki sağlamlıqlarının inkişaf etdirilməsinə geniş imkanlar açır. Nəticədə isə hərbi qulluqçular arasında idman hərəkatının daha da genişlənməsinə hərtərəfli şərait yaranır. Şübhəsiz ki, fiziki hazırlıq və idman tədbirlərində fəal iştirak edən hərbi qulluqçularımız real döyüşlərdə də düşmənə layiqli cavab verməyə qadirdirlər.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

# Ermənistanın İsrail Prezidentinə bəslədiyi ümidlər puça çıxdı

Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın İsrailə səfəri uğursuzluğa düçar olub. Onu Prezident Reuven Rivlindən başqa İsrail dövlətinin heç bir rəsmi şəxsi qəbul etməyib.

AzərTAc İsrail mətbuatına istinadla xəbər verir ki, bu ölkədə prezident postu rəmzi xarakter daşıyır və real hakimiyyət hökumət başçısının əlində cəmləşir. Amma nə Baş nazir Benyamin Netanyahu, nə də xarici işlər naziri Aviqdor Liberman E.Nalbandyanla görüşməyiblər.

Təsadüfi deyil ki, E.Nalbandyanın İsrailə səfəri haqqında yeganə informasiya Ermənistan Xarici İşlər Nazirliyinin saytında verilib.

Əslində bu, Ermənistan diplomatiyasının tam iflasıdır. Belə ki, ermənilər uydurma soyqırımının "100 illiyi"nin tamam olduğu 2015-ci ildə ən çox İsrailə ümid bəsləyirdilər. Onlar "erməni soyqırımı"nın tanınmasının tərəfdarı hesab etdikləri Reuven Rivlinin prezident seçilməsinə çox sevinmişdilər. Amma E.Nalbandyanla görüş zamanı İsrail Prezidenti də "erməni soyqırımı"nın tanınmasına dəstək verməkdən imtina edib. Beləliklə, E.Nalbandyan İsrailə səfərdən əliboş qayıdıb. Bu, Azərbaycanın strateji tərəfdaşından Ermənistana tutarlı bir zərbə olub.

Onu da xatırladaq ki, İsrail Prezidenti Reuven Rivlin bu yaxınlarda BMT-nin Baş Məclisində Beynəlxalq Holokost Qurbanlarını Anma Günü ilə əlaqədar keçirilən tədbirdəki çıxışında dünyada törədilən soyqırımları və kütləvi qətllər barədə danışarkən onların arasında Xocalı soyqırımını da qeyd etmişdi.

*Xarici ölkə ordularında*

# Beş məhvedici silah növü

***Son yüz il ərzində müasir müharibənin xarakterində bir çox dəyişikliklər baş verib. Ölkələr arasında baş verən güclü rəqabət daha müasir silahlanma sisteminin yaradılmasına səbəb olub. Elə kəşflər də vardır ki, neçə əsrlər ötməsinə baxmayaraq, hələ də döyüş əməliyyatlarında öz bəhrəsini verir. Söhbət atıcı silahlardan gedir. Onlar AK-47 Kalaşnikov avtomatı, PK Kalaşnikov pulemyotu, M-16 tüfəngi, M240 pulemyotu, QBZ-95 avtomat tüfəngidir. Bu silahlar haqqında qısaca da olsa məlumat veririk.***

AK-47 Kalaşnikov avtomatı, üçüncü dünya ölkələrinin döyüş əməliyyatlarında istifadə edilən etibarlı və davamlı silahlardan biridir. Hazırda bu silahdan bir çox ölkələrdə geniş istifadə olunur və dünyada nümunəvi silah sayılır. AK-47-də 7.62 mm-li güllələrdən, növbə ilə atəş açmaq üçün isə 7.62 x 39 mm kalibrli güllələrdən də istifadə edilir. Onun yüngül çəkiyə malik olması əsgərlərin döyüşə çoxlu patron daşımasına imkan verir. Bu silahdan atəş açmaq çox asandır. Lazımi vaxtda onu asanlıqla söküb-yığmaq olur. Dünyada müxtəlif modifikasiyalı AK-47 avtomat silahları hazırlanıb.

M16 tüfəngi müasir tüfənglərdəndir. Onun ən son versiyası M16A4 silahıdır, çəkisi 3.99 kiloqram olmaqla, maqazini 30 güllədən ibarətdir. Silahın atəş uzaqlığı 550 metrə qədərdir. Dəqiqədə 12-15 dəfə atəş açır. Onların ilkin modernləşdirilmiş versiyaları olan M16A1, M16A2, M16A3 tüfəngləri hissə-hissə "dəniz pişikləri" adlanan kəşfiyyat bölmələri üçün buraxılır, Artıq M16A4 tüfəngi dəniz piyadalarının silahlanmasına qəbul edilib.

M240 pulemyotu orta kalibrli avtomat silahdır ki, ABŞ dəniz piyadalarının, quru qoşunlarının və dünyanın 68 ölkəsinin silahlanmasına daxildir. Silahdan tək-tək atəş açmaq üçün 7.62 mm kalibrli güllələrdən istifadə olunur. Atəş uzaqlığı 1800 m-ə qədərdir. Çəkisi 21.3 kiloqramdır. Amerika ordusunda onu zirehli maşınlarda quraşdırırlar.

Yüngül Kalaşnikov pulemyotu isə AK-47 avtomatı kimi bütün dünyada geniş yayılıb. Harada AK avtomatı varsa, PK pulemyotu da onun yanındadır. Hər ikisi eyni döyüş sursatı ilə təchiz olunub. Kalaşnikov pulemyotundan hava hədəflərinə də atəş açmaq olar.

Yüngül QBZ-95 avtomat tüfəngi əsasən Çin ordusunun silahlanmasındadır. Bu silahla Çinin Silahlı Qüvvələrinin bütün qoşun növləri və polisi təchiz edilib. Avtomat silahın versiyası əsasında piyadalar üçün çoxlu sayda silah hazırlanıb. Döyüş maşınlarının heyəti və xüsusi təyinatlılarda qısa lüləli variantlardan, atəş gücünü artırmaq üçün isə ağır və uzun lüləli versiyasından istifadə olunur. Tüfəngin darağı 30 güllədən ibarətdir.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Bakı Olimpiya Stadionu hazırdır



2012-ci ilin dekabrında tikintisinə başlanılmış Bakı Olimpiya Stadionunun istismara hazırlığı ilə bağlı akt imzalanıb və istismarına icazə verilib. Obyekt Gənclər və İdman Nazirliyi tərəfindən podratçıdan təhvil alınıb.

Nazirlikdən AzərTAc-a bildiriblər ki, Bakı Olimpiya Stadionunun tikintisi cədvəl əsasında vaxtında aparılıb. Obyektin müvafiq təşkilatlar tərəfindən yoxlanılması işləri aparılıb, tikinti norma və qaydalarına, layihə sənədlərinə uyğun inşası barədə rəy verilib.

Qeyd edək ki, cari il iyunun 12-dən 28-dək Bakıda ilk dəfə olaraq təşkil ediləcək Avropa Oyunlarının açılış və bağlanış mərasimləri bu məkanda keçiriləcək.

## Milli komandamız buzadırmanma üzrə dünya çempionatında ikinci yeri tutub



Rusiyanın Kirov şəhərində keçirilən sürətli buzadırmanma üzrə dünya çempionatında milli komandamız ölkəmizi müvəffəqiyyətlə təmsil edib.

FAIREX-in mətbuat xidmətindən AzərTAc -a bildiriblər ki, çempionatın nəticələrinə əsasən, komandalararası yarışda FAIREX-in idmançılarından təşkil olunmuş Azərbaycan millisi ikinci yeri tutub.

Kişilər və qadınlar arasında sürət üzrə keçirilən çempionat üç gün davam edib. Yarışlarda ölkəmizi FAIREX-in idmançılarından Rinat Rəhimxanov, Alim Atluxanov, Qalib Şıxrəhimov, Ramel Rəhimxanov, Leyla Əhmədova və Sima Səfərova təmsil ediblər.

## Azərbaycan velosipedçisi "Panevejis-2015" turnirinin qalibi olub



Litvanın Panevejis şəhərində velosiped idmanının trek növü üzrə Beynəlxalq Velosipedçilər İttifaqının 1-ci kateqoriyalı "Panevejis-2015" turniri start götürüb. AzərTAc xəbər verir ki, yarışda Azərbaycan yığma komandasının 2 üzvü - Olqa İsmayılova və Nicat Niftəliyev də mübarizə aparıb. 500 metr məsafəyə sprint növündə mübarizə aparan Olqa İsmayılova bütün rəqiblərindən üstün olmaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, final yürüşündə rusiyalı Yelena Brejnevanı qabaqlayıb və sürətini 51.45 kilometrsaata çatdırmaqla finişi 34,985 saniyəyə keçib.

## Taekvondoçularımız "Qatar Open" beynəlxalq turnirində uğurla çıxış ediblər



Taekvondo üzrə kişilərdən ibarət Azərbaycan yığma komandası G1 kateqoriyalı "Qatar Open" beynəlxalq turnirində iştirak edib. Azərbaycan Taekvondo Federasiyasından AzərTAc-a bildiriblər ki, turnirdə 11 taekvondoçu ilə təmsil olunan komandamızın üzvlərindən Radik İsayev 87 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər idmançımız Kamil Abdulrazakov (63 kq) isə gərgin keçən final döyüşündə rəqibə qızıl xalda məğlub olaraq turniri ikinci pillədə başa vurub.

## Bəxtiyar Abbasov Ukraynada yerli idmançını 4 dəqiqəyə məğlub edib



Azərbaycanın və "Qəbələ" İdman Klubunun təmsilçisi, qarışıq döyüş növlərində tanınmış pəhləvanımız Bəxtiyar Abbasov növbəti görüşünü keçirib. 29 yaşlı idmançı Ukraynanın paytaxtı Kiyevdə keçirilmiş "Polad döyüşçülər" ("Stalnıye voini") adlı gecəyə qatılıb. 84 kq çəki dərəcəsində çıxış edən Abbasovun rəqibi ukraynalı Aleksandr Boyko olub. Peşəkar rinqdə 21-ci döyüşünə çıxan, indiyədək 12 dəfə qalib gələn Ukrayna təmsilçisi elə ilk raunddaca məğlub olub. 4-cü dəqiqədə boğucu fəndlə rəqibini çıxılmaz vəziyyətə salan Abbasov Boykonu təslim olmağa vadar edib.

Qeyd edək ki, bu, 5 ildən artıqdır ki, peşəkar MMA döyüşlərində çıxış edən Bəxtiyar Abbasovun 17-ci döyüşündə 13-cü qələbəsidir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 304
Nüsxə 4600